# Gəncədə "Uşaqların məktəbə hazırlığına dəstək ol!" aksiyası çərçivəsində tədbir keçirilib





**Gəncə Şəhər İcra Hakimiyyətinin, Təhsil İdarəsinin, Yeni Azərbaycan Partiyası şəhər təşkilatının dəstəyi və Azərbaycan Rus İcmasının, Rusiya səfirliyinin, Mədəniyyət və İnformasiya Mərkəzinin, "Rossotrudniçestvo"nun Azərbaycandakı nümayəndəliyinin, habelə "VTB" Bankın təşkilatçılığı ilə Gəncədə "Uşaqların məktəbə hazırlığına dəstək ol!" aksiyası çərçivəsində tədbir keçirilib.**

Heydər Əliyev adına Park-Kompeksdə gerçəkləşən tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Azərbaycanın Rus İcmasının sədri, Milli Məclisin deputatı Mixail Zabelin , "Rossotrudniçestvo"nun Azərbaycandakı nümayəndəsinin rəhbəri İrek Zinnurov, Azərbaycandakı "Rus Dili Müəllimləri" Assosiasiyasının sədri Lyubov Yakunina, Milli Məclisin deputatı Naqif Həmzəyev, şagird və müəllimlər iştirak ediblər.

Niyazi Bayramov çıxışında qeyd edib ki, Azərbaycanla Rusiya arasında münasibətlər, ikitərəfli əlaqələr bu gün də uğurla davam edir. Şəhər rəhbəri vurğulayıb ki, bu gün keçirilən aksiya iki ölkə arasında olan səmimi münasibətin bariz nümunəsidir. Eyni zamanda Niyazi Bayramov ilk dəfə məktəbə qədəm qoyan şagirdləri də təbrik edib, yeni tədris ilində onlara uğurlar arzulayıb.

Mixail Zabelin də şagirdləri təbrik edib, Zəfər tarixi yaşayan Azərbaycan övladlarına bir daha müharibə acısı yaşamamağı arzulayıb. Millət vəkili onların Vətənə və cəmiyyətə layiqli övlad kimi böyüyəcəyinə əmin olduğunu bildirərək sözügedən aksiya çərçivəsində Gəncəyə səfərindən məmnun olduğunu qeyd edib.

Çıxışlardan sonra Gəncə Uşaq-Gənclər və İnkişaf Mərkəzinin üzvləri, habelə təhsil müəssisələrinin istedadlı şagirdlərinin ifasında şeirlər səsləndirilib, rəqslər nümayiş olunub.

Sonda təşkilatçılar birinci sinif şagirdlərinə məktəb ləvazimatları hədiyyə veriblər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2021.- 14 sentyabr.- S.7.